# *FİLOLOGİYA ELMLƏRİ*

## Heydər Əliyev və Azərbaycan dili

**Məlahət Osmanova**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət İdarəçilik Akademiyası*
**E-mail:** malaxat_osmanova@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.f.d., dos. Q.N. Süleymanova

**Açar sözlər:** dövlət, dil, mədəniyyət, xalq, əlifba, inkişaf, elm, şəxsiyyət, tarix
**Ключевые слова:** государство, язык, культура, нарол, алфавит, развитие, наука, личность, история
**Key words:** state, language, culture, people, alphabet, development, science, personality, history

*"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir!*
*Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".*

***Heydər Əliyev***

Babalarımızdan bizə üç şey miras qalmışdır: torpağımız, qeyrətimiz, dilimiz (Şah İsmayıl Xətayi). Sivilizasiyaların inkişafı, milli mənəvi dəyərlərin adət-ənənələrin inkişafında özünü təsdiqdə ən başlıca amil kimi dil faktoru dayanır. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi dil insanlar və nəsillər arasında tarixi yaşadan ən vacib amildir. Azərbaycan dilinin inkişafı bütün epoxalarda Azərbaycan xalqının özünütəsdiqi idi. "Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir" (1, s. 15).

Naxçıvanda və Mingəçevirdə ana dilimizə abidələrin ucaldılması, Azərbaycan dilinin inkişafı üçün verilmiş sərəncam və fərmanlar dilimizə olan qayğının başlıca nümunəsidir.

Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkünlüyünü qeyd edən Əliyevin qayğısı və diqqətinin təzahürü dil haqqındakı fərmanlarda öz əksini daha aydın şəkildə tapır. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamında Dövlətçiliyimizin başlıca rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsaslı surətdə yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə keçirilən tədbirlər, verilən qərarlar olduqca əhəmiyyətlidir.

Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq bir sıra fərmanları imzalamışdı.

Azərbaycan dili Gününün təsis edilməsi (09.08.2001), Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu" (30.IX.2002) və bu qanunun tətbiq edilməsi (02.01.2003), Azərbaycan Milli Elmlər Akademiyasının statusu (04.01.2003) və Milli Ensiklopediyasının nəşri haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı (12.01.2004) Azərbaycan dilinin inkişafına böyük dəyər və qayğının təcəssümüdür.

Kütləvi şəkildə Azərbaycan dilində və latın qrafikası ilə respublikamızda nəşr olunan qəzet və jurnalların və bütün sənədlərin, ümumiyyətlə nəşrlərin həyata keçməsi dilimizin inkişafına böyük zəmin yaratdı.

Hər bir dövlətin elmi-nəzəri və ideoloji əsaslarını yaşatmaq, onu tarixi səcərədən uzaq salmamaq üçün xalqın yaddaşını, ədəbi-mədəni inkişaf mərhələlərini, tarixi şəxsiyyətlərinin və ziyalılarının irsini qoruyub saxlamaq gərəkdir.

Xalq öz ziyalısı yaradıcı insanları, tarixi şəxsiyyətləri ilə tanınır. Azərbaycan xalqının mədəniyyət sahəsindəki uğurları tarixin yaddaşlarında silinməz izlər buraxmışdır. Azərbaycan ədəbiyyatı tarixinə nəzər salsaq, İzzəddin Həsənoğludan başlayaraq (XIII əsr ilk ana dilli şeirimiz):

"Ayırdı könlümü bir xoşqəmər üz, can fəza dilbər,
Nə dilbər, dilbəri - şahid, nə şahid, şahidi - sərvər"

Məhəmməd Füzulinin (XVI əsr):

"Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.
Artıran söz qədrini sidq ilə qədrin artırır,
Kim nə miqdar olsa da, əhlin eylər ol miqdar söz.
Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl
Edə hər saət səni ol yuxudan bidar söz..."

yaradıcılığında inkişaf edən ana dilimiz bu gün özünün ən yüksək zirvəsinə çatmışdır. Dil insanı dəyərləndirmək üçün vasitədir. (Məhəmməd Peyğəmbər)

Heydər Əliyevin dövlətçilik şüurunu təmsil edən Azərbaycan xalqının böyük eposu olan "Kitabi-Dədə Qorqud" dastanının müdrik qəhrəmanı Dədə Qorqudu tariximizin etnik yaddaşımızın ayrılmaz hissəsi kimi müəyyənləşdirmişdir.

Qanı dedigim bəy ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?(2. s. 51).

"Kitabi-Dədə Qorqud" dastanının dilindəki sözlərin estetik təsiri axıcılığın, melodiyanın bolluğundan, zənginliyindən qaynaqlanır. Əlində qopuz tutan Qorqud atanın vətəni ana dili idi" (3, s. 13).

Dilin inkişafı xalqın məişəti, adət-ənənələri, coğrafi mühiti, tarixi hadisələri, mədəni-iqtisadi əlaqələri ilə sıx bağlıdır. Xalqın inkişaf səviyyəsi onun ümumi inkişaf səviyyəsinin

qarantıdırsa, dilin inkişaf səviyyəsi də xalqın ümumi inkişaf səviyyəsinin göstəricisidir. Rus ədəbiyyatı klassikləri adlı kitabında V.Q.Belinski yazmışdır: Şair sözü yüksək və müqəddəs sözdür. Bu sözdə ölməyən əbədi şöhrət və əbədi həqiqət vardır. Əhməd Cavad "Dilimiz" şeirində dilin saflığından, təmizliyindən bəhs edərək, yad ünsürlərdən və süni əcnəbi sözlərdən qorumağa çağırırdı:

Baxaq dilimizə nələr görünür:
Oxuyub-anlamaq yazmaqdan gücdür.
Yazan düşünmədən yazsa da belə,
Oxucu beş-on gün gərək düşünə,
Ki, anlasın bu söz ərəbmi, farsmı?

"Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Bu dilin əsasını qədim dövrlərdən Azərbaycan torpağında məskunlaşmış türk əsilli boyların və soyların dili təşkil edilmişdir. Azərbaycandakı ayrı-ayrı türk əsilli boy və soy birləşmələri ümumi anlaşma vasitəsi kimi bu dildən istifadə etmişdir" (4, s. 7-8).

Prof. N. Xudiyev Azərbaycan ədəbi dili tarixini aşağıdakı kimi dövrləşdirmişdir:

1. Azərbaycan ədəbi dilinin təşəkkülü dövrü (VII-VIII əsrlərdən XI-XII əsrlərə qədər).
2. Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrü.
3. Azərbaycan ədəbi dilinin milli dili əsasında yenidən formalaşması və inkişafı dövrü (XVII əsrdən bu günə kimi), (5, s. 5).

Dilimizin saflığının qorunması və təkmilləşdirməsi üçün ötən il Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı bu sahədəki bir sıra problemlərin həllinə zəmin yaratdı. Azərbaycan Milli Elmlər Akademiyasında "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planı"nın hazırlanması və "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi"nin publik hüquqi şəxs yaradılması fərmanda qeyd olunmuşdur. Ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün qanunvericilik aktlarında dəyişikliklər barədə təklif və tövsiyələrini hazırlamışlar.

Ölkəmizdə elm və təhsil sahəsində islahatların müvəffəqiyyətlə həyata keçməsində, dil quruculuğunun və Azərbaycan dilinin dövlət statusu alandan sonra davamlı inkişafı və yüksəlməsi, bütün ali məktəblərdə Azərbaycan dili və nitq mədəniyyəti dərslərinin keçirilməsi ümummilli lider Heydər Əliyevin sayəsində olmuşdur. Dil quruculuğu da, dil siyasəti ilə bağlı olan anlayışdır. Dil quruculuğu dil siyasətinin tərkib hissələrindən biridir. Azərbaycan xalqının milli dilidir və bu dil müstəqil Azərbaycan Respublikasının rəsmi dilidir.

**Məqalənin aktuallığı.** Heydər Əliyev irsi həm zəngin, həm çoxşaxəli, həm də daim öyrənilməsi və gələcək nəsillərə çatdırılması nöqteyi-nəzərdən olduqca vacibdir. Müdrik siyasətçi həmişə doğma dilimizin saflığına xüsusi həssaslıqla yanaşmış və onun qorunması üçün dövlət səviyyəsində əməyini əsirgəməmişdir. Məhz bu mövzunun əhəmiyyətini nəzərə alsaq, məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə dilin inkişafının həmin xalqın məişəti, adət-ənənələri, coğrafi mühiti, tarixi hadisələri, mədəni-iqtisadi əlaqələri ilə sıx bağlı olduğu konkret faktlarla göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümümtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlarla yanaşı, geniş oxucu auditoriyası da yararlana bilər.

## Ədəbiyyat

1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.
2. Kitbi-Dədə Qorqud. Bakı: Öndər, 2004.
3. K. Vəliyev Sözün sehri. Bakı: Yazıçı, 1986.
4. B. Xəlilov. Müasir Azərbaycan dili. Bakı, 2013.
5. N. Xudiyev. Azərbaycan ədəbi dilinin təşəkkülü. Bakı, 1991.

**М. Османова**

## Гейдар Алиев и азербайджанский язык

## Резюме

Развитие языка тесно связано с благосостоянием, традициями, географической средой, историческими событиями, культурными и экономическими отношениями. Хотя уровень развития нации является гарантией ее общего развития, уровень языкового развития также является показателем общего уровня развития нации.

Народ известен своими умными творческими людьми, историческими личностями. Успех азербайджанского народа в области культуры оставил неизгладимый след в истории. Надо смотреть на историю азербайджанской литературы.

**M. Osmanova**

## Heydar Aliyev and the Azerbaijani language

## Summary

The development of the language is closely connected with well-being, traditions, geographical environment, historical events, cultural and economic relations.Although the level of development of a nation is a guarantee of its overall development, the level of language development is also an indicator of the overall level of development of a nation.

The people are known for their smart creative people, historical figures. The success of the Azerbaijani people in the field of culture has left an indelible mark on history. We must look at the history of Azerbaijani literature.

**Redaksiyaya daxil olub:** 18.09.2019